# 2021-ci il ərzində idxal olunmuş mallara tətbiq edilmiş orta çəkili, sadə orta və 0 faiz dərəcəsi ilə idxal gömrük rüsum dərəcələri barədə məlumatlar

1) **2021-ci ilin 12 ayı üçün orta çəkili tarif dərəcəsi hesablanarkən aşağıdakı parametrlərdən istifadə edilmişdir :**

a) 12 aylıq idxal əməliyyatlarının həcmi;

b) 12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi.

12 ay ərzində idxal əməliyyatlarının həcminin **11 705 786 680** ABŞ dolları olduğunu nəzərə alsaq (statistik dəyər ABŞ dolları ilə ifadə olunduğu üçün), həmin dövr üçün onların ümumi gömrük dəyəri **19 899 837 356** manata bərabər olur:

Gömrük$_{dəy}$ = **11 705 786 680 ABŞ dolları * 1.7 manat = 19 899 837 356 manat**

12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi **1 205 507 800** manata bərabər olduğu üçün, bu rəqəm idxal edilmiş malların ümumi gömrük dəyərinin **6.06%** təşkil edir (Cədvəl 1).

***Cədvəl 1. Orta çəkili tarif dərəcəsinin hesablanması.***

| İDXAL EDİLMİŞ MALLARIN ÜMUMİ GÖMRÜK DƏYƏRİ (AZN) | İDXAL EDİLMİŞ MALLAR ÜZRƏ GÖMRÜK RÜSUMLARININ MƏBLƏĞİ (AZN) | ORTA ÇƏKİLİ TARİF DƏRƏCƏSİ (%) |
|---|---|---|
| **19 899 837 356** | **1 205 507 800** | **6.06** |

2) **2020-ci il üzrə tarif xətləri üzrə sadə orta tarif dərəcəsi 8,08% təşkil etmişdir.** Sadə orta rüsum dərəcəsinin hesablanmasında “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarında tətbiq olunan idxal gömrük rüsumlarının dərəcələrinin tarif xəttlərinə nisbəti əsasında müəyyənləşdirilir:

Tarif xəttlərinin sayı (Txs) – 10361
Rüsum dərəcələrinin məcmusu (Rdm) = (0% x 2994) + (5% x 2054) + (15% x 4916) = 83740

**Sadə orta tarif dərəcəsi = Rdm/Txs=83740/10390=8.06%**

3) **Müxtəlif mal mövqelərinə tətbiq edilən advalor gömrük rüsumlarının tarif dərəcələri ilə bölgüsü, spesifik gömrük rüsum dərəcələri və onların sayları. (Cədvəl 2)**

***Cədvəl 2. Tarif dərəcələrinin XİFMN üzrə bölgüsü.***

| Tarif dərəcəsi | XİFMN üzrə alt yarımmövqelərin sayı |
|---|---|
| **0%** | 2994 |
| **5%** | 2054 |
| **15%** | 4916 |
| **Spesifik** | 426 |
| **Cəmi** | **10390** |

4) **2021-ci il üzrə ölkə ərazisinə idxal edilən malların 19.01 faizi “0” faiz idxal tarif dərəcəsinə cəlb olunmuşdur (Cədvəl 3):**

***Cədvəl 3. 0% idxal gömrük rüsum dərəcəsinə cəlb edilmiş idxalın həcmi.***

***(ABŞ dolları ilə)***

| Dövr | İdxalın həcmi | "0" dərəcə ilə idxal | "0" dərəcə ilə idxalın xüsusi çəkisi %-lə |
|---|---|---|---|
| **01.01.2021-31.12.2021** | **11 705 786 680** | **2 226 329 100** | **19.01%** |